*Günay MƏMMƏDOVA*
g-alizade87@mail.ru

# AZƏRBAYCANDA BÖLGƏ MƏTBUATININ İNKİŞAF MƏRHƏLƏLƏRİ
## (sovet dövrü)

**РЕЗЮМЕ**

Региональная печать, появившаяся в период Азербайджанской Демократической Республики, получило широкое распространение в советский период. За последние несколько лет во всех регионах

Азербайджана начали последовательно появляться ряд газет, направленных на пропаганду советской власти. Все газеты финансировались государством и все публикуемые статьи подвергались серьезной цензуре. Основные печатные органы, за небольшим исключением, функционировали как органы центрального комитета, районного комитета, фабрик и заводов. Выдающиеся теоретики периода, анализируя деятельность районных газет, обсуждали лишь творческую часть деятельности, но вопросы свободы печати не обсуждали. Несмотря на все недостатки, наличие районных газет привило местному сообществу привычку читать газеты.

***Ключевые слова:*** совет, периодическая печать, региональные газеты, пропаганда, региональная печать, политические вопросы.

## SUMMARY

Although Region press started to activity in ADR period, during the Soviet authority it appeared in the all territories of country. Finally, newspapers started to publishing under the name of developing of the region in all regions of the Azerbaijan, but main idea was propagating of Soviet regime. All of the newspapers were financed by government and all of the articles were analysed by strong censorship. Press activated fully as body of central committee of party, region, and fabrics . When Prominent theorists of period analyse region newspapers, they only discuss creativity field, they never touched the freedom issues of press. Despite of all incompleteness, the existing of region newspapers made a reading habit of people.

***Key words***: soviet, periodical press, regional newspapers, propaganda, motivation in the press, political issues, regional press.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmağa başlayan region mətbuatı Sovet hakimiyyəti dövründə ölkənin bütün bölgələrində bərqərar oldu. Cəmi bir neçə il ərzində Azərbaycanın bütün rayonlarında həmin bölgənin hadisələrinin işıqlandırılması adı altında sovet hakimiyyətinin təbliğinə yönəlmiş qəzetlər ardıcıl şəkildə nəşr olunmağa başladı. Qəzetlərin hamısı dövlət tərəfindən maliyyələşir və nəşr olunan bütün yazılar ciddi senzuradan keçirdi. Mətbuat kiçik istisnalar olmaqla bütövlükdə partiyanın mərkəzi komitəsinin, rayon komitələrinin, zavod və fabriklər orqanı kimi fəaliyyət göstərirdi. Dövrün görkəmli nəzəriyyəçiləri rayon qəzetlərini təhlil edərkən ancaq yaradıcılıq sahəsini müzakirə edir, mətbuatın azad olması məsələsinə isə toxunmurdular. Bütün çatışmayan cəhətlərə baxmayaraq rayon qəzetlərinin olması yerli camaat arasında qəzet oxumaq vərdişini yaratdı.

XX əsrdə baş vermiş inqilablar dövlət quruluşunu tam yeni bir quruluş ilə əvəz etmiş, bütün əski ictimai münasibətləri başqalaşdırmış, bunun üzərinə bütün siyasi, mədəni normalar alt-üst olmuş, tərz-təfəkkür, nəzəriyyələr, fəlsəfələr, bir sözlə bütün yaşayış yerindən oynamış, öz cığırını itirmişdir. Mətbuat

kiçik istisnalar olmaqla bütövlükdə partiyanın mərkəzi komitəsinin, rayon komitələrinin, zavod, fabrik komitələrinin orqanı idi. Deməli, mətbuat bu orqanları tənqid edə bilməzdi. Bütün bunlar ona görə idi ki, mətbuat hər şeydən əvvəl partiyanın əlində xalqa rəhbərlik, təbliğat və təşviqat aləti rolunu oynayırdı. KİV bütünlüklə həm maliyyə, həm də nəzarət cəhətdən partiyanın əlində idi. Jurnalistlər redaksiyanın texniki avadanlığı, binası, kağızı haqqında narahatlıq keçirmirdilər. Qəzetlərə məcburi abunələr yazılırdı. Qəzetlər ziyana işləsələr də bu, artıq partiyanın problemi idi.

Sovet jurnalistikasında özünü göstərən qəzet tipləri: partiya, sovet, komsomol, həmkarlar təşkilatları və bir sıra nazirlikləri, sahələri (maarif, ədəbiyyat, incəsənət, səhiyyə və s.) əhatə edirdi. Lakin bu qəzetlərin çox böyük əksəriyyəti həm də partiya təşkilatlarının orqanı idi. Bütün bü tipologiya az qala eyni şəkildə müttəfiq respublikalarda – respublika səviyyəsində təkrar olunurdu. Məsələn, SSRİ üzrə mərkəzi qəzet hesab olunan «Pravda»nın Azərbaycan tipaji «Kommunist» qəzeti, «Literaturnaya qazeta»nın və «Sovetskaya kultura»nın «Ədəbiyyat və incəsənət» qəzeti, «Sovetskaya industriya»nın «Vışka» və s. qəzetlər idi.

Sovet mətbuatının ən ümumi tipologiyası aşağıdakı strukturda idi:

- Mərkəzi qəzetlər;
- Respublika qəzetləri;
- Vilayət qəzetləri;
- Rayon qəzetləri.

Bunlar da öz növbəsində aşağıdakı strukturu formalaşdırırdı: Mərkəzi partiya, sovet, həmkarlar, komsomol, hətta pioner qəzetləri, mərkəzi sahə, nazirlik qəzetləri və s.

Müasir Azərbaycan Kütləvi İnformasiya Vasitələri isə indiki şəraitdə əsasən 3 istiqamətdə fəaliyyət göstərir:

- Mərkəzi qəzetlər
- Bölgə qəzetləri
- Rayon qəzetləri

Müasir dövrdən fərqli olaraq sovet hakimiyyəti dövründə alternativ variantlar olmadığından rayon qəzetlərinin oxucu sayı çox idi. Mətbuat hakimiyyətin mübariz dəstəsi, partiyanın kəsərli və güclü silahı idi. Rayon qəzetlərinin fəaliyyəti kəndlərimizin gündəlik həyatı ilə sıx bağlıydı. 1971-ci ildə "Müxbir" jurnalının 9 nömrəli buraxılışında Məmmədəli Məmmədovun qələmə aldığı məqalədə bildirilir ki, SSRİ-də 3000-dən artıq rayon qəzeti buraxılır. Bunlardan bir qismi Azərbaycanın payına düşür. Hakimiyyət mətbu silahının gücünü artırmaq üçün bir sıra düşünülmüş addımlar atırdı. "Zəhmətkeşlərin kommunist tərbiyəsində rayon qəzetlərinin rolunu artırmaq haqqında".(1) Mərkəzi Komitənin (1968-ci il) qərarında göstərilir ki, son illərdə respublika, vilayət, ölkə, şəhər və rayon mətbuatını daha da inkişaf etdirmək, onun kəsərliliyini artırmaq, təsərrüfatdakı rolunu yüksəltmək, zəhmətkeşlərin

qüvvəsini partiyanın qərarlarını müvəffəqiyyətlə həyata keçirmək işinə səfərbərliyə almaq üçün bir sıra əməli tədbirlər görülsün. Belə müddəalardan irəli gələrək atılan addımlar rayon qəzetlərinin məzmununu yerli camaatdan uzaqlaşmasına səbəb olurdu. Yazılar öz məzmunu ilə oxucuların hərtərəfli marağını ödəmirdi. Qəzet səhifələrində həddindən artıq iri və rəsmi materiallar dərc olunurdu. Məmmədəli Məmmədovun "Qəzetin tematikası" adlı məqaləsində belə qeyd olunur: "Rayon qəzeti kütləvi qəzetdir. Bu qəzet öz rayonunun həyatını hərtərəfli əks etdirməyə borcludur. Onun tematikası rəngarəng və müxtəlif olmalıdır".(2)

Qəzetin tematikasının zəngin, rəngarəng, oxunaqlı olması, geniş oxucu kütləsinin tələbatına cavab verməsi onun düzgün planlaşdırılmasından asılıdır. Məsələn: "Laçın" qəzetinin sovet hakimiyyəti dövründə çıxan nömrələrini təhlil edəndə görürük ki, qəzetin tematikası zəngin olmayıb. Qəzet həftədə iki dəfə, bəzən də üç dəfə nəşr olunub. bu nömrələrdə rayon həyatının müxtəlif sahələrini kifayət qədər əks etdirə bilər. Lakin qəzetin səhifələrinin əsasını təsərrüfat xarakterli materiallar təşkil edir. Bu materiallar isə çox vaxt birsahəli olur. Qəzetin bir nömrəsi sağıcılara, bir nömrəsi maldarlara, digər nömrəsi isə yem toplanışına həsr edilib. Oxucu bir nömrədə günün müxtəlif hadisələri ilə deyil, bir məsələ ilə tanış olur. Bu da o deməkdir ki, qəzetin həmin sayı yalnız bəhs edilən sahəyə məxsus oxucu üçün maraqlı olur. Qəzet burda rayon qəzeti deyil, ixtisaslaşmış sahə qəzeti rolunu oynayır. Qəzetdə yalnız 5-6 nömrədən bir bütün sahə adamlarının maraq dairəsində olan mövzuları əhatə edən baş məqaləyə rast gəlinir.

Rayon qəzetlərinin dil və üslub xüsusiyyətləri hər zaman nəzəriyyəçilərin diqqətində olub. Qəzet ədəbi dilin sürətlə formalaşmasının və sabitləşməsini təmin edir, ədəbi dili canlı danışıq dilinə yaxınlaşdırır, xalq dilinin rəngarəngliyini yazılı nitqə gətirir, dilin lüğət tərkibinin zənginləşməsinə və onun qrammatik quruluşunun daha da cilalanmasına, gözəlləşməsinə xidmət edir. Ona görə də qəzet istər mövzu dairəsinə, istərsə də dilinə görə seçilməlidir. Nəzərə almaq lazımdır ki, qəzet hər gün müxtəlif yaşa, müxtəlif zövqə, müxtəlif savada, müxtəlif sənətə malik olan adamlarla ünsiyyət saxlayır, onları siyasi və mənəvi cəhətdən tərbiyə edir. Fikri aydın, dolğun və düzgün ifadə etmək, zamanın ruhunu tutmaq, baş verən hadisələri oxucunun gözləri qarşısında canlandırmaq və mətbuatımızın müasir tələbatına cavab vermək üçün, hər şeydən əvvəl, dilimizin qayda-qanunlarından, onun zənginliyindən bacarıqla istifadə etmək tələb olunur. 1970-ci illərdə yazılan məqalələrdə qəzetlərin dil-üslubu kəskin tənqid olunur. Dilçi alim Vilayət Əliyevin məqaləsində bu məsələlər konkret faktlarla göstərilir: "Dildə hər bir sözün, ifadənin öz məzmunu, mənası və vəzifəsi vardır. Söz və ifadələr buna münasib seçib işlədildikdə qəzet üslubunun təbiiliyini qorumuş olur, yazıların aydın, yığcam və səmimi olmasını təmin edir. Bu cür yazıları oxuyarkən adam yorulmur və heç bir çətinlik çəkmədən nə deyildiyini başa düşür. Belə bir mühüm cəhət rayon qəzetlərində gözlənilmir. Belə bir məqama diqqət yetirək: "Dağlıq və dağətəyi yamaclarda təzə bağların salınmasında, bərpa və təmir işlərində, habelə ağacların normal inkişafını təmin etməkdən ötrü inistitumuzda gübrələrdən istifadə olunmasının yeni üsulu işlənib hazırlanmışdır"("Şəfəq" qəzeti).

"Həyasızlaşmış bu xuliqan milis işçilərinə də zor göstərməklə onları da söyüb təhqir etmişdir... İndi hamını maraqlandıran məsələdir: görəsən Xeyrulla bundan özünə son nəticə çıxaracaqmı?" (Sovet Astarası)".(3)

Bu cümlələrin ətraflı izaha ehtiyac yoxdur. Sözlərin yerində düzgün işlədilməməsi, sözün mənadan ayrılması, üslub yoxsulluğu, sözçülük, məntiqi uyğunsuzluq və.s həmin cümlələri səciyyələndirən əsas cəhətlərdir. Əlbəttə, bu cür sönük və yorucu dil qəzet üslubuna yabançıdır.

Yazıların bəzilərində dilimizin qayda-qanunlarına uyğun gəlməyən, süni səslənən söz və ifadələr rayon qəzetlərinin səhifələrində özünə yer tapır. Ayrı-ayrı qəzetlərdən götürülmüş bir neçə cümləni nəzərdən keçirək: "Üç ildir ki, öz kolxozlarında **briqadirlik vəzifəsində** işləyir...Briqadanın kollektivi bu ilin yaz tarla işlərinə nümunəvi hazırlaşır...".(4) "Bu dəfə o... onu intizama dəvət edən qohumunu təhqir etdiyi və **müstəsna həyasızlıq** göstərdiyi üçün yaxalandı".(5) "O, həm də bazada **işçilərin təmiri** sexində çalışır"("Məhsul" qəzeti). "Axı, burada... Boran kimi, mübariz **əməkçi adamlar** vardır" ("Şuşa"qəzeti).

Bu cümləəri oxuyan hər bir savadlı adam dil mütəxəssisi olmasa da, "briqadirlik vəzifəsində, briqadanın kollektivi, müstəsna həyasızlıq, işçilərin təmiri sexində, əməkçi adamlar" söz və ifadələrinin düzgün işlədilmədiyini, qondarma olduğunu, təbii səslənmədiyini başa düşür.

Başqa bir dilçi alim Kamil Əliyevin "Gəlin elə yazaq ki" adlı məqaləsində isə tam tərsinə rayon qəzetləri mərkəz qəzetləri ilə müqayisədə dilimizə daha ehtiramla yanaşıldığı qeyd edilir. K.Əliyev məqalədə rayon qəzetlərin çalışan jurnalistlərin əvvəlki illərə nisbətən dil məsələlərinə daha ciddi yanaşdığını müdafiə edir. (6)

Bölgə mətbuatının publisistikasına nəzər salsaq mərkəzi mətbuat orqanlarından fərqlənmədiyinin şahidi olarıq. Bir publisistik yazının sujet və kompozisiyasının əsasını konkret həyat hadisələrində, o cümlədən insanlar arasındakı qarşılıqlı münasibətlərdə daxili məntiqi əlaqələrin jurnalist tərəfindən dərk olunması və oxucuya çata biləcək səviyyədə təqdim olunmasıdır. Buna görə də jurnalistin yaradıcılıq imkanları yazının taleyini həll edir. Qəzetin süjet və kompozisiyası konkret həyat hadisələrində, o cümlədən insanlar arasındakı qarşılıqlı münasibətlərdə daxili məntiqi əlaqələrin jurnalist tərəfindən dərk olunması və oxucuya çata biləcək səviyyədə olmasıdır. Jurnalistin yaradıcılıq imkanları yazının taleyini həll edir. 1986-cı ildə "Sovet Astarası" qəzetində çıxan belə bir yazıya diqqət edək: "Deyirlər qədim ataşpərəstlər ulu babaları Zərdüştün əsas etik göstərişlərinin triadasına- üçlüyünə sözsüz əməl etməli imişlər. Bu üçlük "xeyirxah fikir"dən, "xeyirxah söz"dən və "xeyirxah əməl"dən ibarət idi. Daha dəqiq desək, onlar başında xeyirxah fikirləri, dilində xeyirxah sözləri və fəaliyyətində xeyirxah əməlləri yaşadan insanları ən kamil insanlar sayırdılar". "Baharı insanlar gətirir" yazısının müəllifi professor Xudu Məmmədovun xalq şairi Bəxtiyar Vahabzadənin və əməkdar elm xadimi, professor Nurəddin Rzayevin Astaraya gəlişini bu bədii formayla xəbər verir. Elə yazının kompozisiyası da bu əsas üzərində qurulur. Janr etibarı ilə bədii

gündəlik adlandırıla bilən bu yazı bütövlükdə uğurlu alınıb. Çünki bu səpkidə yazılar o dövr oxucuları üçün daha maraqlı idi. Əgər süjet hadisələrin, münasibətlərin və bir sözlə, həyati faktların zənciridirsə, kompozisiya bu halqaların düzümüdürsə, həmin halqaların özü dildir. Jurnalistin fərdi üslubu qələmə aldığı materialın dilində- leksikonunda, cümlələrin strukturunda, deyim tərzində, intonasiyaların müxtəlifliyində özünü daha parlaq göstərir. Ancaq pafoslu fikri ifadə etmək üçün şit və gurultulu cümlələr işlətmək yazının dəyərini azaldır. Bəzən mətbuatda əmək adamını "qəhrəman" kimi təqdim etmək üçün qondarma epizodlar misal göstərilir, həyatda adi hal sayılan vəziyyətlər şişirdilib əsl hadisə səviyyəsinə qaldırılır. Məsələn: Neftçala rayonunun "Oktyabr bayrağı" qəzetinin bir buraxılışında "Əmək ucaldır" adlı 3 səhifəlik bir yazıda uzun-uzadı problemlər qələmə alınır, hansısa bir kolxozçunu sonda dediyi "daha çox əmək sərf edib işlərimizi artırmalıyıq" ifadəsi ilə qəhrəmana çevirən jurnalist şişirdilmiş fikirlərlə oxucunu aldatmağa çalışır.(7) O nəticəyə əslində bir kolxozçu deyil, bütün işçilər gələ bilər. Əgər bir iş ləng gedirsə, o işi sürətləndirmək üçün daha çox çalışmaq fikrini irəli sürmək "qəhrəman" olmaq demək deyil. Başqa bir misal: "Ən böyük arzum dünyanı sakit görməkdir. Sağ olsun, hökümətimiz bunun üçün nə lazımdır edir. Nəvələrim mənə hamısını danışırlar". Yazının başqa bir abzasında "Ancaq cavanlar da gərək olub-keçənləri unutmasınlar. İşləsinlər, tər töksünlər ki, bolluq, firavanlıq artsın". Bu cür fikirləri jurnalist bu cür şişirdilmiş fikirlərlə qiymətləndirir: "Bu sözləri ancaq ağbircək, dünyanın ağrısını-acısını dadan və bütün varlığı ilə torpağa bağlı olan Bəyim xala deyə bilərdi". (8) Konkretlilik, mətləbə birbaşa keçid və hadisələrin olduğu kimi, amma publisist qələmlə təsviri həm də oxucuya hörmətdir. Uzun-uzadı, həm də mətləbə dəxli olmayan sözlərlə yüklənmiş müqəddimə, məsələyə birbaşa dəxli olmayan az əhəmiyyətli ştrixlərin verilməsi, şablon cümlələr materialın qiymətini aşağı salır.

Rayon qəzetlərində publisistikanın başqa janrları ilə bərabər bir neçə reportajla da rast gəlinir. Çünki təsərrüfat işləri hər saat, hər dəqiqə dəyişən kənd həyatı, oradakı hadisələr reportajın köməyi ilə qəzetdə öz əksini tapa bilir. Reportajın ritmik cümlələri, aydın və sadə dili hadisələri donmuş halda deyil daimi hərəkətdə verir. Oçerkdə jurnalistin yaradıcılıq imkanları üçün heç bir zaman və məkan məhdudiyyəti qoyulmursa və o hadisəni daha ətraflı və bütöv vermək üçün kənar ştrixlərdən istifadə edə bilirsə, bunu reportaja aid etmək olmaz.

1986-cı ildə "Müxbir" jurnalında Cavid Xaspoladov "Rayon qəzetlərində publisistika" adlı məqaləsində belə bir fikir irəli sürür: "Bəzən belə bir bəhanələr eşidirsən: rayon qəzetində yazıb-yaratmaq imkanı məhduddur. Bir rayon çərçivəsində qapanıb qalmaq, qəzet səhifəsinin azlığı istədiyimizi deməyə mane olur. Əslində bütün bunların məsələyə heç bir dəxli yoxdur. Rayonlarımızda müasir publisistik yazılara mövzu ola biləcək nə qədər desən könül açan işlər, yeniliklər, eyni zamanda hamını düşündürən ciddi problemlər mövcuddur. Publisist qələmi onların təbliği və həlli üçün çox iş görə bilər və görməlidir. Digər tərəfdən jurnalistin gücü elə az sözlə çox şey deməyi bacarmasındadır".(9)

Nəriman Zeynalovun "İdeya-tərbiyə işi təcrübəsində rayon qəzetinin yeri" məqaləsində (Müxbir, 1985, 1 yanvar, s-3) rayon qəzetlərinin fəaliyyətini belə təhlil edir: "Rayon qəzetlərinin jurnalistləri daim yeniliyə can atır, fəal axtarışlar aparırlar. Bəzi qəzetlər mühüm kampaniyalar dövründə gündəlik, yaxud iri formatda çıxır, son zamanlar qış aylarında 12 səhifəlik çıxmaq təcrübəsi tətbiq edilir. Rayon qəzetləri təşkilatçılıq işləri görür, yarış vərəqələri, bülletenlər buraxır, divar qəzetlərinə rəhbərlik edirlər. Mərkəzi Komitənin mətbuat bölməsində rayon qəzetlərinin ideolji iş vəzifələrini böyük məharətlə yerinə yetirmələrinə kömək üçün ciddi tədbirlər müəyyənləşdirilir. Səmərə göz önündədir. Mərkəzi mətbuatda rayon qəzetlərinin çıxışlarına çox yüksək qiymət verilir. Rayonlararası seminarlar, yaradıcılıq görüşləri keçirilməsi işi canlandırır. Son zamanlarda Əli Bayramlıda, Astarada, Xanlarda və digər rayonlarda keçirilən seminarlar əsil yaradıcılıq söhbətləri idi. Bunlar olduqca yaxşıdır".(10)

Jurnalistlərin o dövr ideoloji-tərbiyə işinin öhdəsindən necə gəldiyi haqqında yazan N.Zeynalov öz məqaləsində rayon mətbuatının bu işə yanaşmasını belə qiymətləndirir: "Sabirabad, Salyan, Neftçala, Masallı, Cəlilabad, Yevlax, Bərdə rayon qəzetlərində əmək adamlarının həyatına dair verilən oçerklər, zarisovka və məqalələrdə maraqlı müsbət təcrübə var. Həmin yazıları oxuyanda əsl əməkçi həyatının məhz oxucu üçün lazım olan nöqtələrini görə bilərsən. Hiss edirsən ki, qəzetin təbliğatı təsirlidir, oxucu qəlbində alov yarada bilir.

Imişlidə çıxan "Qızıl ulduz" qəzetinin "Qabaqcıllarımız" rubrikası ilə verdiyi yazılar xoşagələndir. Məsələn, "Ömrün durna qatarı" sərlövhəli zarisovka maşinist Rəşid Əhmədovun ömrünün bir neçə xarakterik anını göz önündə canlandırır. Yazını oxuduqca duyursan ki, müəllifin öz qələminə də, qəhrəmanına da, təbliğ etdiyi ideyaya da inamı var. Arxayın olursan ki, həmin inam oxucuya da təsir edə biləcəkdir.

"Abşeron", "Mingəçevir işıqları" qəzetlərində son vaxtlar əmək adamının oxucuya təqdim olunmasında forma və məzmun yenilikləri müşahidə edilir. Həmin məqalələr səni qəzet redaksiyasının özü haqqında müsbət fikir söyləməyə vadar edir. Çünki qəzet işçisi, jurnalist əmək adamının, yaxud iqtisadi tərbiyənin yeni cəhətlərini özü tam-dürüst öyrənməsə, yeni formada təbliğ də edə bilməz".

Sovet dövründə jurnalistikanı təhlil edən nəzəriyyəçilərin də diqqətləri yalnız əmək adamı obrazının yüksəldilməsinə yönəlib. Demək olar ki, heç bir nəzəriyyəçi rayon mətbuatının azadlığı barədə, ölkənin siyasi-iqtisadi vəziyyətini necə təhlil etməsi barədə heç bir fikir irəli sürməyib. Bəlkə də problemləri görən nəzəriyyəçilərin fikirlərini yaymaq, çap etmək imkanı olmayıb. Ümumilikdə elmi məqalələrin hamısının gəldiyi vəhdət fikir budur ki, rayon qəzeti işçisinin kəşf etmək imkanı mərkəzi qəzetlərin jurnalistlərindən daha çoxdur. Çünki o, əmək adamını hər gün görür, fəaliyyətini müntəzəm izləyə bilir. Yaxşı, obyektiv yazıları oxuyanlar deyirlər ki, qəzet öz işinə ürəkdən can yandıranı tapır və bütün rayona tanıtdırır. Kəşf etmək, tapmaq, tanıtdırmaq,sənətkarlıqla yazmaq tərbiyə işini təsirli edir. Heç bir nəzəriyyəçinin

məqalələrin məğzi, məzmunu barədə tənqidi fikir yazmaq şəraiti olmayıb. Göründüyü kimi, tənqidlər dil-üslub, sənətkarlıq məsələlərindən kənara çıxmayıb. Bundan başqa 1970-80-ci illərdə Qarabağda çıxan bir sıra rayon qəzetlərində əsas mövzu dairəsi iki əməkçinin üzərində hər hansı bir təsərrüfat sahəsinin təhlili ilə bağlıdır. Maraqlı məqam odur ki, məqalələrin əsas iki obrazından biri mütləq erməni, digəri isə azərbaycanlı olurdu. Bu iki şəxsin birlikdə fəaliyyətinin daha uğurlu olduğu təbliğ edilir. Qarabağ bölgəsindən başqa Qusar, Qazax, Qax, Tovuz, Xaçmaz, Zaqatalada çıxan rayon qəzetlərində bu səpkidə yazılara rast gəlinir. "Muğan" qəzetində "xalqlar dostluğu"nu təbliğ edən materiallar üçün "Canbir qəlbdə" rubrikası fəaliyyət göstərib.

Sovet hakimiyyəti dövründə rayon qəzetləri arasında müxtəlif müsabiqələr keçirilirdi. Müxbir qəzetində 1973-cü ildə çap olunan buraxılışında belə bir məlumata rast gəlinir: "Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti Komitəsi, Azərbaycan Jurnalistlər İttifaqının idarə Heyəti və nəşriyyat və poliqrafiya üzrə respublika Elmi-Texniki Cəmiyyəti 1973-cü ildə ən yaxşı tərtibat və poliqrafiya ifası üçün keçirdikləri müsabiqəyə yekun vurmuşlar.

"Sosialist Sumqayıtı" və "Kommunist Sumqaita" qəzetlərinin yaxşı poliqrafiya ifasına görə Sumqayıt mətbəəsinin kollektivi 250 manat miqdarında pul mükafatına və birinci dərəcəli diploma layiq görülmüşdür.

"Sosialist Sumqayıtı" və Lənkəranda çıxan "Leninçi" qəzetlərinin redaksiya kollektivlərinə qəzetlərin yaxşı bədii tərtibatına görə 150 manat miqdarında pul mükafatı və ikinci dərəcəli diplomlar verilmişdir.

Masallıda çıxan "Çağırış" qəzetinin redaksiyası da yaxşı tərtibat üçün üçüncülü dərəcəli diplom almışdır".(11)

Beləliklə bölgələrdəki hakimiyyətini mətbu orqanlar vasitəsi ilə möhkəmləndirməyə çalışan partiya hökuməti eyni vaxtda rayonlarda mətbəələr açmış və qəzet çapı məsələsini xüsusilə diqqətdə saxlamışdır. Bununla da tamamilə hökumətin siyasətini təbliğ edən bölgə mətbuatı yaranmağa başlamış, xalqın psixoloji əsirliyi mətbu orqanlar vasitəsilə uzun müddət davam etmiş, partiyaya sədaqət keyfiyyəti jurnalistin professional səviyyəsindən daha üstün tutulmuşdur.

## ƏDƏBİYYAT

1.Zəhmətkeşlərin kommunist tərbiyəsində rayon qəzetlərinin rolunu artırmaq haqqında Mərkəzi Komitənin qərarı, 1968

2.Məmmədov M. Qəzetin tematikası// "Müxbir" jurnalı, 1971, №9, s.18

3.F.e.n. Əliyev V. Rayon qəzetləri və dil məsələləri // "Müxbir" jurnalı, 1972, №3, s.23

4."Dönüş" qəzeti, 1971, 22 aprel, s.2

5."Sovet Astarası"qəzeti, 17 fevral, 1972, s.4

6.Əliyev K. Gəlin elə yazaq ki // "Müxbir" jurnalı, 1980, №10, s.16

7.Neftçala rayonu, "Oktyabr bayrağı" qəzeti, 1986, 11 yanvar, s.3
8.Neftçala rayonu, "Oktyabr bayrağı qəzeti, 1986, 14 aprel s.4
9.Xaspoladov C. Rayon qəzetlərin publisistika // "Müxbir" jurnalı, 1986, №9,s. 24
10. Zeynalov N. İdeya-tərbiyə işi təcrübəsində rayon qəzetinin yeri // "Müxbir" jurnalı, 1985, №1, s.3
11. Rayon və şəhər qəzetlərinin müsabiqəsi // "Müxbir" jurnalı, 1973, №12, s.7.